İCBARİ
TİBBİ SIĞORTA
SABAHA SAĞLAM ADDIMLAYAQ



# Skoliozun profilaktikası üzrə sağlamlıq həftələrinin

# HESABATI

**Skoliozun profilaktikası üzrə sağlamlıq həftələrinin**

**Hesabatı**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi 13-26 oktyabr 2017-ci il tarixində pilot ərazilərdə - Mingəçevir şəhərində və Yevlax rayonunda skoliozun profilaktikası üzrə sağlamlıq həftələri həyata keçirmişdir. Sağlamlıq həftələri çərçivəsində müayinələrdən keçən sakinlərin sağlamlıq vəziyyətini qiymətləndirmək və profilaktika tədbirlərinin səmərəliliyi haqqında tam məlumat əldə etmək məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən registr hazırlanmışdır. Registrdə müayinələrin ilkin nəticələri, müraciətçinin şikayəti və sağlamlıq vəziyyəti, müayinə edən həkim tərəfindən rentgen müayinəsi üçün verilmiş göndərişlər haqqında məlumat, həkimlərin məsləhət və tövsiyələri qeyd olunmuşdur.

"Pilot ərazilərdə əhalinin sağlamlığının qorunması və erkən müayinələrə cəlb edilməsi" layihəsinin işçi qrupu registrdə toplanan məlumatları təhlil etmiş və onun əsasında yekun hesabat hazırlamışdır.

Məktəbyaşlı uşaqlarda onurğa sütunu əyriliklərinə daha çox rast gəlindiyini, erkən aşkarlanma zamanı profilaktik tədbirlərin daha səmərəli olduğunu, bu istiqamətdə maarifləndirmənin, təbliğat-təşviqat işlərinin aparılmasının vacibliyini nəzərə alaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi Yevlax rayonunda fəaliyyət göstərən 33 orta ümumtəhsil məktəbində (Əlavə 1) skoliozun profilaktikası məqsədilə müayinələr təşkil etmişdir və 9228 şagird müayinələrə cəlb olunmuşdur. Müayinələrin nəticəsində 574 məktəblidə skoliozun ilkin əlamətləri aşkarlanmış və onlar ətraflı müayinə üçün ASM-ə yönləndirilmişdir. Müayinələr Yevlax rayonunun inzibati ərazilərində yerləşən Ailə Sağlamlıq Mərkəzlərinin (ASM) həkimləri tərəfindən aparılmışdır.

Məktəblərdə aparılmış müayinələrlə yanaşı Yevlax rayonunda və Mingəçevir şəhərində yerləşən ASM-ə müxtəlif yaş qrupuna aid olan 291 nəfər müraciət edərək tibbi müayinələrdən keçiblər. Beləliklə skoliozun profilaktikası üzrə sağlamlıq həftələri çərçivəsində tibbi müayinələrlə əhatə olunanların sayı 9519 nəfər təşkil etmişdir. Onlardan 32 nəfərinə rentgen müayinəsindən keçmək üçün göndəriş verilmişdir. Rentgen müayinəyə göndərilmə səbəbləri də müxtəlif olmuşdur: yeriyərkən bir tərəfə əyilmə, çiyinlərdə və çanaqda asimmetriyalar, onurğada ağrılar və s.

Tibbi müayinələr pilot ərazilərdə fəaliyyət göstərən 7 ASM-də aparılmışdır. Bunlar Yevlax şəhər ASM, Xaldan ASM, Aran ASM, Malbinəsi ASM, Qaramanlı

ASM, Mingəçevir şəhər ASM, Mingəçevir şəhər ASM 2-dir. ASM-ə müraciətlərin sayı da müxtəlif olmuşdur. Belə ki, Yevlax şəhər ASM-ə 3770 nəfər, Malbinəsi ASM-ə 1078 nəfər, Aran ASM-ə 3068 nəfər, Xaldan ASM-ə 890 nəfər, Qaramanlı ASM-ə 422 nəfər, Mingəçevir şəhər ASM-ə 125, Mingəçevir şəhər ASM 2-yə isə 166 nəfər şəxs müraciət etmişdir (Cədvəl 1).




***Cədvəl 1:*** *Ailə Sağlamlıq Mərkəzlərinə edilən müraciətlərin sayı*

Müraciət edən vətəndaşların 9294 nəfəri 0-15, 45 nəfəri 16-25 yaş, 38 nəfəri 26-35, 41 nəfəri 36-45 yaş, 42 nəfəri 46-55 yaş, 44 nəfəri 56-70 yaş arasında, 15 nəfəri isə 70 yaşdan yuxarı olublar (Cədvəl 2).




***Cədvəl 2:*** *Ailə Sağlamlıq Mərkəzlərinə müraciət edən vətəndaşların yaş qrupları üzrə göstəriciləri*

9181 nəfər ailə həkimlərinin, 338 nəfər isə ixtisas həkimlərinin qəbulunda olublar (Cədvəl 3).




Müayinələr zamanı bir sıra patologiyalar erkən aşkarlanmışdır. Belə ki, müayinəyə gələnlərin 567 nəfərində skolioz, 16 nəfərində kifoz, 4 nəfərdə isə onurğa deformasiyaları aşkarlanmışdır. Bundan əlavə 100 nəfərdə 1-ci dərəcəli skolioz, 79 nəfərdə isə skolioza meyillilik olduğu aşkarlanıb. Digər müraciətçilərdə onurğa sütunu ilə bağlı heç bir patologiya aşkar olunmamışdır.

Ailə həkimləri müayinəyə gələn vətəndaşlara sağlam həyat tərzi, skoliozun ilkin əlamətləri, tibbi müayinələrin vacibliyi, həmçinin, valideynlərə övladlarının qamətinin düzgün formalaşmasına diqqət yetirmələri, onları idmana yönləndirmələri haqqında mühüm məsləhətlər veriblər. Məktəbyaşlı uşağın yazı masasının onun yaşına və boyuna uyğun quraşdırılmasının, məktəbli çantasının ağır olmamasının əhəmiyyəti vurğulanıb.

Qeyd edək ki, skoliozun profilaktikası üzrə sağlamlıq həftələri çərçivəsində pilot ərazilərin sakinlərinə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış “Qamətli nəsil yetişdirək” bukleti paylanmışdır.

# ƏLAVƏ 1

**Skoliozun profilaktikası üzrə sağlamlıq həftələri çərçivəsində müayinələr aparılan məktəblərin siyahısı:**

1.Yevlax şəhəri 1 nömrəli tam orta məktəb
2.Yevlax şəhəri 4 nömrəli tam orta məktəb
3.Yevlax şəhəri 5 nömrəli tam orta məktəb
4.Yevlax şəhəri 6 nömrəli tam orta məktəb
5.Yevlax şəhəri 8 nömrəli tam orta məktəb
6.Yevlax şəhəri 9 nömrəli tam orta məktəb
7.Yevlax şəhəri 10 nömrəli tam orta məktəb
8.Ağdam rayonu 23 nömrəli tam orta məktəbi
9.Kəlbəcər rayonu 30 nömrəli tam orta məktəbi
10.Yevlax rayonu Qoyunbinəsi kənd tam orta məktəbi
11.Yevlax rayonu Malbinəsi kənd tam orta məktəbi
12.Yevlax rayonu Aran qəsəbəsi 2 nömrəli tam orta məktəbi
13.Yevlax rayonu Aran qəsəbəsi 3 nömrəli ümumi orta məktəbi
14.Yevlax rayonu Aran qəsəbəsi 1 nömrəli tam orta məktəbi
15.Yevlax rayonu Balçılı kənd tam orta məktəbi
16.Yevlax rayonu Nemətabad kənd tam orta məktəbi
17.Yevlax rayonu Nərimanabad kənd tam orta məktəbi
18.Yevlax rayonu Salahlı kənd tam orta məktəbi
19.Yevlax rayonu Səmədabad kənd tam orta məktəbi
20.Yevlax rayonu Tanrıqulular kənd tam orta məktəbi
21. Yevlax rayonu Varvara kənd tam orta məktəbi
22.Yevlax rayonu Yəldili kənd tam orta məktəbi
23. Yevlax rayonu Xaldan kənd tam orta məktəbi
24.Yevlax rayonu Havarlı kənd tam orta məktəbi
25. Yevlax rayonu Xanabad kənd orta məktəbi
26.Dəlləklər kənd ibtidai orta məktəbi
27.Köyük kənd ibtidai orta məktəbi
28.Qaramanli kənd tam orta məktəbi
29.Qaraməmmədli kənd tam orta məktəbi
30.Nemerli kənd tam orta məktəbi
31.Nurallar kənd ibtidai orta məktəbi
32.Rustəmli kənd tam orta məktəbi
33.Yevlax rayon Hacımahmudlu kənd orta məktəbi